AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

## ƏMR

№ R-70

Bakı şəhəri "08" 06 2020-ci il

**2019/2020-ci tədris ilində yaz semestrinin imtahan sessiyasının keçirilməsi üzrə Apellyasiya Komissiyasının yaradılması haqqında**

Bakı Dövlət Universitetində (BDU) 2019/2020-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasında tələbələrin biliyinin qiymətləndirilməsi qaydaları və nəticələrindən olan şikayətlərin araşdırılması və obyektiv qiymətləndirmənin, onlayn rejimdə keçirilən imtahanlar zamanı şəffaflığın və obyektivliyin yüksək səviyyədə təmin edilməsi, mümkün münaqişələrin və neqativ halların operativ şəkildə aradan qaldırılması məqsədilə **əmr edirəm:**

1. Aşağıdakı tərkibdə Apellyasiya Komissiyası (bundan sonra – Komissiya) yaradılsın:

| | |
|---|---|
| Qurbanov Elşad | Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor, sədr |
| Məmmədov Elçin | Tədrisin təşkili və idarə olunması Mərkəzinin (TTİOM) direktoru, sədr müavini |
| Abışova Nərgiz | TTİOM-nin Təcrübənin təşkili sektorunun böyük mütəxəssisi, katib |
| Abdullayev Mehman | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent, üzv |
| Aslan Knyaz | Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent, üzv |
| Cavadov Rövşən | Gender və tətbiqi psixologiya kafedrasının müəllimi, üzv |
| Cəfərov Yasin | Kimyanın tədrisi metodikası kafedrasının müdiri, dosent, üzv |
| Əliyev Səməd | Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, dosent, üzv |

BDU ƏSLİ İLƏ DÜZDÜR

| | |
|---|---|
| İsmayılov Nicat | Tələbə Gənclər Təşkilatının sədri vəzifəsini icra edən, üzv |
| Kazımov Mehdi | İran filologiyası kafedrasının müdiri, professor, üzv |
| Qasımova Rəna | Optika və molekulyar fizika kafedrasının müdiri, professor, üzv |
| Mehrəliyev Yaşar | Differensial və inteqral tənliklər fizikası kafedrasının müdiri, professor, üzv |
| Mirzəyev Əmirxan | Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin (EFTİM) Texnologiyaların transferi və innovasiyalar şöbəsinin baş mütəxəssisi, üzv |
| Orucova Səhər | Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, üzv |
| Rəcəbov Məmməd | EFTİM-in direktoru, dosent, üzv |
| Sadıqov Tofiq | İnsan resursları və hüquq şöbəsinin Hüquq sektorunun müdiri, üzv |
| Salmanov Vaqif | Yarımkeçiricilər fizikası kafedrasının müdiri, professor, üzv |
| Təhməzova Təranə | Ümumi və tarixi geologiya kafedrasının dosenti, üzv |
| Vəliyeva Səbinə | Azərbaycan dilçiliyi kafedrasının müəllimi, üzv |

2. Komissiyaya daxil olan şikayətlərin, təklif və məlumatların hərtərəfli, obyektiv və operativ şəkildə araşdırılması üçün BDU üzrə "Qaynar xətt" xidməti yaradılsın.

3. Komissiyanın sədrinə tapşırılsın:

a) "Qaynar xətt"ə (elektron poçt, yaxud telefon zəngləri vasitəsi ilə) daxil olan hər bir şikayətin operativ şəkildə araşdırılmasını təmin etsin, neqativ hallara yol vermiş əməkdaşlara qarşı mövcud qanunvericiliyə uyğun olaraq tədbirlərin görülməsi haqqında təkliflər hazırlasın və aidiyyatı üzrə təqdim etsin;

b) Təhsil Nazirliyində fəaliyyət göstərən "Qaynar xətt" xidmətindən daxil olan hər bir şikayətin operativ surətdə araşdırılmasını və nəticəsi barədə Təhsil Nazirliyinə məlumatların verilməsini təmin etsin;

c) Apellyasiya şikayətlərinin araşdırılması zamanı aşkar edilmiş ziddiyyətlərin aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanmasını, lazım olduqda isə ekspert və mütəxəssislərin cəlb olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Azərbaycan Respublikasının Təhsil nazirinin 2020-ci il 02 iyun tarixli F-277 nömrəli əmri

**Bakı Dövlət Universitetinin rektoru** **Elçin Babayev**